UOT 94(479.24)

ZƏHRA İSLAMOVA
tarix üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universitetinin müəllimi
zahraislamova@bsu.edu.az

ŞİRVANŞAHLAR DÖVRÜNDƏ SÜNNİLİK MƏZHƏBİNİN REGİONDA YAYILMASI VƏ DİNİ İNSTİTUTLARIN FORMALAŞMASI

DOI: https://doi.org/10.36719/2708-065X/110/44-48

Şirvanşahlar dövründə (IX–XVI əsrlər) Azərbaycanın şimal-şərqində yerləşən Şirvan bölgəsində İslamın Sünni təmayüllərinin yayılması və bu prosesin nəticəsində formalaşan dini institutların siyasi, ideoloji və sosial-iqtisadi funksiyalarının təhlil olunması mühüm aktuallıq kəsb edir. Sünni, xüsusilə Hənəfi məzhəbinin dövlətin rəsmi ideologiyasına çevrilməsi və bu çərçivədə sufi təriqətlərin (Qadiriyyə, Nəqşibəndiyyə) rolu vurğulanır. Məqalədə Evliya Çələbinin müşahidələrinə və digər tarixşünaslıq mənbələrinə əsaslanaraq məscidlər, mədrəsələr, təkkələr, qazılıq sistemi və vəqf mülkiyyətinin dini həyatdakı və idarəçilikdəki əhəmiyyəti geniş şəkildə araşdırılır. Araşdırmanın nəticəsi olaraq, Şirvanda İslamın yalnız mənəvi deyil, eyni zamanda inzibati və iqtisadi bir struktur olaraq təşəkkül tapdığı sübut olunur.

Açar sözlər: Şirvanşahlar, Sünni məzhəbi, Hənəfi fiqhi, dini institutlar, vəqf, qazılıq sistemi, Nəqşibəndiyyə, Qadiriyyə, Evliya Çələbi, Şirvan bölgəsi.

Giriş. Şirvan bölgəsi orta əsrlər boyunca Azərbaycanın siyasi, mədəni və dini həyatında mühüm rol oynamışdır. Xüsusilə Şirvanşahlar sülaləsinin hakimiyyəti dövründə (IX–XVI əsrlər) bölgədə İslam dini geniş yayılmış, dini institutlar təşəkkül tapmış və dövlətin ideoloji dayaqlarından birinə çevrilmişdir. Şirvanşahların siyasi legitimliyi Sünni İslam, xüsusilə Hənəfi məzhəbi üzərində qurulmuş və bu məzhəbin prinsipləri dövlət idarəçiliyində əsas ölçü kimi qəbul edilmişdir. Eyni zamanda, sufi təriqətlərin – Qadiriyyə və Nəqşibəndiyyənin – fəaliyyəti, dini təbliğat və mənəvi tərbiyə baxımından bölgədə əhəmiyyətli olmuşdur. Evliya Çələbinin XVII əsrin ortalarında bölgəyə etdiyi səfərlər zamanı verdiyi müşahidələr həmin dövrdə Şirvanda dini institutların, dini vəzifələrin və vəqf sisteminin artıq inkişaf etmiş və funksional vəziyyətdə olduğunu göstərir. Bu yazıda Şirvanşahlar dövründə Sünni məzhəbinin yayılması, dini strukturların təşkili, sufi təriqətlərin rolu, qazıların və digər din xadimlərinin fəaliyyətləri, həmçinin vəqf sisteminin sosial və iqtisadi funksiyaları təhlil edilir.

Şirvanşahların sünni ideologiyası və sufi təriqətlərinin rolu. Şirvanşahlar sülaləsinin ideoloji dayaqlarından biri İslamın Sünni məzhəbi olmuşdur. Sülalə öz siyasi legitimliyini bu məzhəbin dəyərləri əsasında qurmağa və idarəçiliyini dini-məzhəbi prinsiplərlə əsaslandırmağa çalışmışdır. Şirvanşahlar özlərinin sünni kimliklərini uzun müddət qoruyub saxlamış, xüsusilə Hənəfi məzhəbinə bağlılıqları ilə tanınmışdılar. Evliya Çələbinin yazdığına görə, Qızılbaş Səfəvilərin regiona hücumları və qısa müddətli nəzarətləri dövründə belə, yerli əhali sünnilikdə sabit qalmış, yalnız bəzi bölgələrdə şiə təriqətləri güclənmişdi. Evliya Çələbinin təsvir etdiyi Şirvan bölgəsi — xüsusilə Şamaxı, Niyazabad, Gilan, Şəki, Bakı, Rukal və digər şəhərlər — XVII əsrin ortalarında sünni məzhəbinin dominant olduğu bir region kimi təqdim olunur. O qeyd edir ki, bu şəhərlərin əksər əhalisi "ehl-i sünnət vəl-cəmaat və Hənəfi məzhəbindəndir". Bunun əsas səbəbi kimi Şirvanın 70 il ərzində Osmanlı hakimiyyətində qalması göstərilir [16, s.115]. Beləliklə, Osmanlı idarəçiliyi dövründə sünni məzhəbinin təsdiqlənməsi və dövlət səviyyəsində təşviq olunması regionun dini kimliyini formalaşdırmışdır.

Bununla yanaşı, Evliya Çələbi 1647-ci ildə Şirvanda olarkən Şeyx Səfi xəlifələrindən Şeyx Şərimi Sultan və onun müridlərini ziyarət edərkən onları "ehl-i sünnet ve'l-cemaat İmam **Hanefi mezhebinde ve Şâfiî mezhebinde**" kimi təqdim edir [7, s.684-686]. Bu, XVII əsrdə Şirvanda rəsmi məzhəb olaraq Səfəvilərdən qalma şiəliyin yayılmasına baxmayaraq, sünni təriqətlərin, xüsusilə Hənəfi və Şafi məktəblərinin də geniş yayılmış olduğunu göstərir.

Eyni zamanda, sufilik və onun Sünni yönümlü qolları - xüsusilə Qadiriyyə və Nəqşbəndiyyə - Şirvan bölgəsində fəaliyyət göstərmişdir. Bu təriqətlər həm dini təbliğat, həm də mənəvi təhsil baxımından böyük rol oynamışdır. Şirvanşahlar bu sufi təriqətləri dəstəkləyərək dini-mənəvi həyatı nizama salmaq və əhalini Sünni əqidəsində saxlamaq məqsədi güdmüşlər.

Evliya Çələbinin buna dair verdiyi bilgilər **Nəqşibəndi təriqətinə** mənsub dərvişlərin, "kalenderi abdalların", "müvahhid ehl-i sünnet" sufi icmalarının bölgədə fəal olduğunu göstərir. Nəqşibəndilik, İslamın Sünni təriqətlərindən biri olan sufi təriqətidir. Adını XIV əsrdə yaşamış Xacə Bəhaəddin Nəqşibənddən (1318-1389) almışdır. Bu təriqət, mənəvi tərbiyə və Allah ilə yaxınlıq qazanmaq məqsədi ilə zikr (Allahı anma) və təfəkkürə əsaslanan bir yol təqib edir. Nəqşibəndilik, xüsusilə Orta Asiya, Türkiyə, Hindistan və digər İslam bölgələrində geniş yayılmışdır. Bu təriqət özünəməxsus xüsusiyyətləri ilə seçilir. Nəqşibəndilikdə zikr adətən səssiz, ürəkdən edilir (zikr-i xafi), bu da digər təriqətlərdən fərqləndirici xüsusiyyətdir. Təriqət, İslam şəriətinə ciddi riayət etməyi vurğulayır və mənəvi təcrübələrin şəriət çərçivəsində olmasını tələb edir. Şeyx və ya mürşidin müridlərlə söhbətləri vasitəsilə mənəvi təlim-tərbiyə verilir. Müridin şeyxi ilə mənəvi bağlılıq qurması, onun rəhbərliyi ilə Allahı anması ilə seçilir. Nəqşibəndilikdə mənəvi inkişaf üçün 11 əsas prinsip (kəlimat-ı qudsiyyə) mövcuddur, məsələn, "xuş dər dəm" (hər nəfəsdə ayıq-sayıq olmaq), "nəzər bər qədəm" (addımlarına diqqət etmək) və s. Nəqşibəndilik, xüsusilə Osmanlı imperiyasında və Mərkəzi Asiyada böyük təsirə malik olmuş, Şirvan bölgəsində də öz təsirlərini uzun müddət qoruya bilmişdilər. Bu təriqət, siyasi və ictimai həyatda da mühüm rol oynamışdır.

Dini institutlar və dini mərkəzlərin formalaşması. Evliya Çələbinin təsvirində, dini institutlar – məscidlər, mədrəsələr, təkkələr və ziyarətgahlar – sosial və ictimai həyatın mərkəzi kimi təsvir edilmişdir.

Məscidlər və minbərlər:

Şamaxıda 70-ə yaxın məscidin olması, Div-ali (Şah Təhmasib tərəfindən tikilib), Kabir-cami və Fərhad Paşa məscidlərinin mövcudluğu bu şəhərin dini həyatının mürəkkəbliyini göstərir. Kabir-cami şiə Səfi şah tərəfindən, Fərhad Paşa məscidi isə osmanlı sünni üslubunda tikilmişdir, lakin vəqfı olmadığı üçün bağlıdır – bu, dini institutların davamlılığında vəqflərin mühüm rolunu göstərir. Şabranda Toxmaq xan, Əfşar xan və Uzun Həsənə məxsus Cümə məscidlərinin olduğunu və Osmanlı hakimiyyəti dövründə hər cümə günü Osmanlı paşası Özdemirzadə öz böyük heyəti ilə buraya cümə namazı üşün gəldiyini bildirir [16, s.120].

Mədrəsələr və imarətlər:

Şamaxıda 7 mədrəsə və 40-a yaxın məktəb fəaliyyət göstərir. Bu təhsil ocaqları dini biliklərin ötürülməsi, alimlərin yetişdirilməsi və məzhəbi biliklərin qorunması baxımından önəmli rol oynayırdı. Fərhad Paşa və Özdəmirzadə Osman Paşanın qurduğu mədrəsələr osmanlı mədəni təsirini göstərir.

Təkkələr və ziyarətgahlar:

Niyazabadda Afşar Baba, Şamaxı yaxınlığında Rza Həzrətin ziyarətgahı, Rukal, Xaraç, Altıağaç (Şeşdərəxt) kimi yerlərdəki pirlər, Dərgah piri ziyarətgahı həm yüksək zümrə, həm də sadə xalq tərəfindən ziyarət edilən müqəddəs mərkəzlərdir. Bu məkanlar eyni zamanda vəqf gəlirləri ilə maliyyələşdirilən sosial yardım mərkəzləri kimi də fəaliyyət göstərmişdir.

Şirvanın əsas şəhərləri olan Şamaxı, Bakı və Qəbələ kimi mərkəzlərdə məscidlər, mədrəsələr və qazılıq sistemləri yaradılmışdır. Bu institutlar həm dini tədrisin mərkəzləri, həm də hüquqi və ictimai nizamın təminatçısı kimi çıxış edirdi.

Dini vəzifələr və din xadimləri. Evliya Çələbi ***kadı, müfti, imam, müdərris, yasavul və dizdar*** kimi dini vəzifə sahiblərinin mövcudluğu göstərilir. Bu vəzifələr şəhər və kəndlərdəki dini idarəçiliyi təmin edir.

Şirvanda ***qazılar*** şəhər və ya vilayət əmirindən sonra ən nüfuzlu şəxslər sayılırdı. Şirvanşah İbrahim (1382-1417) Əmir Teymur ilə görüşı gedərkən dövlətin baş qazısı Əbu Yəzid ilə məsləhətləşdiyi, eləcə də Şirvanşahlar üçün mühüm əhəmiyyət kəsb edən 1412-ci il Kürsahili döyüşündə də Əbu Yəzidin (Bəyazid) və qazı Mövlana Zahirəddinin iştirak etməsi tədqiqatlarda öz əksini tapmışdı [2, s.294]. Şirvanşah Fərruz Yasar (1462-1500) da dövlət idarəçiliyinin mühüm məsələlərində alimlərin və ali rütbəli din xadimlərinin fikrilə hesablaşırdı. Şirvanşah onların rolunu yüksək qiymətləndirir, onlara dövlətin dayağı kimi baxır, rəiyyəti onların köməyi olmadan itaətdə saxlamağı mümkün say-

mırdı [2, s.326]. Gördüyümüz kimi, Şirvanşahlar dini-elmi ruhaniləri idarəçilikdə mühüm tərəfdaş kimi qəbul edir, qazıları və alimləri həm siyasi qərarların formalaşdırılmasında, həm də rəiyyət üzərində təsirin qorunmasında əsas dayaqlardan biri sayırdı.

Vilayətin baş qazısı mərkəzdə əyləşir və "qazı əl-qüzzat" (qazılar qazısı) adlanırdı. Şirvanın bütün şəhər, nahiyə və kəndlərində yerli qazılar vardır ki, onlar baş qazıya tabe idilər. Dini və hüquqi rəhbərlik baxımından qazılar şəriət məhkəmələrinin idarə edilməsi, hüquqi mübahisələrin həlli, notarius fəaliyyəti, vəsiyyət, kəbinkəsmə, əmlakın bölüşdürülməsi, saziş və qəbalə kağızlarının hazırlanması və möhürlə təsdiqlənməsi funksiyalarını yerinə yetirirdi. Yetimlərin əmlakına qayğı göstərmək, onlara qəyyum təyin etmək funksiyaları da qazılara aid idi. Bu məsələlərin həllində qazılar fəqihlərin fikirlərinə əsaslanırdılar [2, s.284]. Bunları nəzərə alaraq qazıların aşağıdakı səlahiyyətləri müəyyən edilmiş olur:

- Şəriət qanunlarına əsasən məhkəmə qərarları çıxarmaq.
- Sənədləri rəsmiləşdirmək və təsdiqləmək.
- Əmlak və irs məsələlərində nəzarət və qərarvermə səlahiyyəti.
- Dini və mənəvi təhsilə rəhbərlik etmək (bəzi qazılar müdərris kimi də fəaliyyət göstərirdi).

Evliya Çələbiyə əsasən, Şamaxıda 12 hakim (hakimlər şəriət məsələlərinə də baxırdı), eyni zamanda şəhərin müftisinin bir mədrəsədə dərs deməsi, eyni zamanda müdərrislərin mədrəsələrdə dini elmlər üzrə təhsil verdikləri qeyd olunur. Bakının da 12 hakiminin və ayrıca bir qazisinin olması Çələbi tərəfindən qeyd edilmişdir [16, s.118]. Bundan başqa Təkkə rəhbərlərinin (şeyxlər), xüsusilə Nəkşibəndi və Yasəvi təriqətlərinə bağlı şəxslər dini-sosial fəaliyyətlərdə aparıcı rol oynayır.

XI-XII əsrdə qzaıların formalaşmış olan funksiya və səlahiyyətləri XV-XVIII əsrlərdə də Şirvanda qazıların fəaliyyətinə aid edilə bilər. Bu dövrdə Şirvan Osmanlı və Səfəvi idarəçiliyi altında olmuş, lakin şəriət məhkəmələrinin rolu və qazıların vəzifələri əsasən dəyişməz qalmışdır. Osmanlı idarəçiliyi dövründə sünni Hənəfi məzhəbinə bağlılıq gücləndirilmiş, Səfəvi hakimiyyəti dövründə isə şiə təsirləri artsa da, qazıların şəriətə əsaslanan hüquqi və inzibati funksiyaları davam etmişdir. Sufi təriqətlərinin (məsələn, Nəqşibəndiyyə) təsiri də bu dövrdə qazıların dini-mənəvi rolunu dəstəkləmişdir. Qazı vəzifəsinin irsi xarakteri də bu əsrlərdə müşahidə olunurdu, xüsusən əyan ailələri arasında.

Şəhər idarəetməsində feodal hakimiyyət sisteminə daxil olan mühüm vəzifələrdən birini ***sədr*** tuturdu. O, vəqflərlə bağlı məsələlərə nəzarət edən, Şirvanşahın təyin etdiyi yüksək rütbəli bir nazir idi. Ruhani zümrəsinə daxil olan digər zümrələr Cümə məscidlərinin ***imamları, müdərrislər, seyidlər***, dərviş iqamətgahlarının, xanəgah və zaviyələrin və s ***şeyxlər***i, habelə vəqflərin ***mütəvəlliləri*** idi.

Vəqf mülkiyyəti və iqtisadi funksiyalar. Şirvanşahlar dönəmində vəqf sistemi də inkişaf etdirilmiş, bu sistem vasitəsilə məscidlərə, mədrəsələrə və sufi zaviyələrinə maddi dəstək göstərilmişdir. Əlyazma mənbələr və arxeoloji qazıntılar nəticəsində üzə çıxan daş kitabələr və vəqfnamələr bunu təsdiq edir. Bu sənədlərdə göstərilir ki, hökmdarlar tərəfindən Sünni üləmaya torpaq, bağ və digər gəlir gətirən əmlak bağışlanmışdır. Bakıda yerləşən qara neft mədənləri şahın mülkiyyəti hesab edilirdi, Mərkəzi Asiya, Gürcüstan, Dağıstan, eləcə də Osmanlı ilə sərhəddə yerləşən qalalara həm müdafiə, həm də işıqlandırma məqsədilə neft göndərilir və illik 7 min tümən dövlət xəzinəsinə gəlir gətirirdi [16, s.118]. Neftli sahələrin gəlirliyini nəzərə alaraq bu torpaqların vəqf edilməsi təəccüblü deyil.

Fərrux Yasar dərvişlərə böyük ehtiram bəsləyir, müxtəlif xeyriyyə fəaliyyətləri ilə məşğul olurdu. O, hicri 895-ci (1490) ildə Bakıdakı Əbu Səid ibadətgahına vəqf olaraq Abşeronda yerləşən neftli sahələr, əkin yerləri və üzümlüklər bağışlamışdı [2, s.326]. Onu da qeyd edək ki, türk sultanı III Muradın 1591-ci il tarixli fərmanında Əmir Xəlilullah vəqfinin əlavə gəlirindən Bibiheybət məqbərəsinin xidmətçisi Şərafəddin Əliyə gündə dörd axça məbləğində maaş təyin olunduğu qeyd edilir. Vəqfin gəliri ziyarətə gələnlərin nəzir kimi verdikləri qoyun, pul və digər əşyalardan ibarət idi. Bu, Şirvanşah Xəlilullah (1417-1465) zamanında həmin məzara vəqf torpaqlarının bağışlandığını göstərir" [12, s.64-65]. Şirvanşah Xəlilullahın (1417–1465) vəqf siyasəti, dövrünün dini və sosial institutlarını gücləndirməyə yönəlmiş sistemli fəaliyyətlərlə xarakterizə olunur. O, dini nüfuz mərkəzləri olan ziyarətgah və məqbərələrin təsisatını dəstəkləyərək bu məkanların maddi təminatını təmin edən vəqflər təsis etmişdir. Bibiheybət məqbərəsi üçün ayrılmış torpaq və digər gəlir mənbələri bu siyasətin bariz nümunəsidir. Bu fəaliyyət Xəlilullahın vəqflərinin yalnız dini deyil, həm də inzibati və sosial funksiyalar daşıdığını, davamlı təsirə malik olduğunu göstərir. Belə ki, Osmanlı sultanı III Muradın 1591-ci il fərma-

nında qeyd olunan kimi, bu vəqflərin gəlirləri ziyarətgah xidmətçilərinin maaşlarının ödənilməsinə sərf olunmuşdu.

Şirvanşahların vəqf fəaliyyəti onun dini zümrəyə olan münasibətini, həmçinin sosial-iqtisadi sabitliyi dini institutlar vasitəsilə qorumağa çalışdığını göstərir. Neftli torpaqların vəqf edilməsi, vəqfin yalnız dini deyil, eyni zamanda iqtisadi funksiyasını da ortaya qoyur. Bu nümunə Şirvanşahlar dövründə dini ocaqların həm mənəvi, həm də maddi baxımdan dəstəkləndiyini təsdiqləyir.

Dini institutların yaranıb formalaşması birbaşa vəqf sisteminə bağlı idi. Evliya Çələbi qeyd edir ki, Fərhad Paşanın məscidinin vəqfi olmadığından bağlıdır [7, s. 684; 16, s. 195]. Məscidin bağlı qalması vəqf təminatının olmaması ilə izah edilir. Bu, dini tikililərin fəaliyyətinin birbaşa olaraq vəqf sistemindən asılı olduğunu sübut edir. Təkkələrdə zəngin süfrələrin olması, gələn-gedənə yemək verilməsi və zəvvarların təmin olunması vəqf gəlirləri ilə həyata keçirilirdi. Rza Həzrətin ziyarətgahı Şah Hüseyn tərəfindən təmir edilmiş, ona bol ianələr bağlanmış və zəngin vəqf yaradılmışdır. Bu, dini liderlərin və təriqətlərin rəsmi şəkildə tanındığını və hətta qatı şiə olan Qızılbaş hökmdarlar tərəfindən maddi olaraq dəstəkləndiyini göstərir. Maraqlıdır ki, Dərbənddə Özdəmirzadə Osman paşanın hökmranlığı dövründə paşanın öz adına tikdirdiyi Cümə məscidi olsa da, kifayət qədər gəlirli mənbələrin olmasına baxmayaraq Çələbiyə əsasən burada kasıblar üçün yeməkxana olmadığı qeyd edilir.

Nəticə. Şirvanşahlar dövründə Sünni İslam təkcə bir dini məzhəb olaraq deyil, eyni zamanda dövlətin ideoloji dayağı və sosial-iqtisadi institutların əsas strukturu kimi formalaşmışdır. Dini institutların təşkili, vəqf sisteminin inkişafı, mədrəsə və qazılıq sistemlərinin qurulması bu siyasətin təzahürü idi. Bu durum yalnız dini həyatla məhdudlaşmamış, regionun siyasi sabitliyinə və sosial birliyinə də xidmət etmişdir. Evliya Çələbinin verdiyi məlumatlar əsasında demək olar ki, Şirvanşahlar dövründə dini siyasət əsasən sünni islamın, xüsusilə hənəfi məzhəbinin qorunması və yayılmasına yönəlmişdir. Bu siyasət Osmanlı idarəçiliyi dövründə daha da sistemli hal almış və nəticədə bölgədə geniş dini institutlar şəbəkəsi formalaşmışdır. Məscidlər, mədrəsələr, təkkələr, zaviyələr, vəqflər və dini vəzifəli şəxslər bu strukturun əsas dayaqları olmuşdur. Dini həyatın idarəçiliyində vəqf mülkiyyəti əsaslı rol oynamış və dini fəaliyyətlərin davamlılığını təmin etmişdir. Beləliklə, Şirvan bölgəsində İslamın sünni təmayülləri əsasında formalaşmış dini-inzibati modelin mövcudluğu Evliya Çələbinin müşahidələrində dolğun şəkildə əks olunmuşdur.

ƏDƏBİYYAT

1. Abdi Beğ Şirazi. Safeviler: Tekmiletül-Ahbar (Başlangıçtan 1571'e Kadar Safevilerin Tarihi). Çeviren ve notlar Şefaattin Deniz ve Hasan Asadi. İstanbul: Bilge Kültür Sanat Yayınları, 2019, 160 s.
2. Aşurbəyli, Sara. Şirvanşahlar dövləti. Bakı: Avrasiya Press, 2006, 416 s.
3. Azərbaycan tarixi. Dərslik. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2019, 400 s.
4. Bayramlı, Z.H. Azərbaycan Səfəvi imperiyası: Dövlət quruluşu. Bakı: Füyuzat Nəşriyyatı, 2020, 596 s.
5. Bayramlı, Z.H., Şabiyev B.Ş. Azərbaycan Səfəvi dövləti (XVI–XVII əsrlər). Bakı: Avropa Nəşriyyatı, 2016, 344 s.
6. Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər). Bakı, "Şərq-Qərb", 2007, 312 s.
7. Evliyâ Çelebi. Günümüz Türkçesiyle Evliya Çelebi Seyahatnâmesi: Viyana, Eflak-Boğdan, Bükreş, Ukrayna, Kırım, Bahçesaray, Çerkezistan, Dağıstan, Kalmukistan, Saray, Moskova. 7. Kitap. 2. Cilt. Hazırlayan: Seyit Ali Kahraman İstanbul: Yapı Kredi Yayınları, 2011, 828 s.
8. Əfəndiyev O. A. Azərbaycan Səfəvilər dövləti. Bakı, "Şərq-Qərb", 2007, 344 s.
9. Fərzəlibəyli Ş.F. XV əsr Azərbaycan dövlətlərinin quruluşu. Bakı, "Elnur-P", 2003, 118 s.
10. Fəzlullah ibn Ruzbihan Xunci. Tarix-i Aləm-ara-yi Əmini. Bakı, 1987.
11. Minorsky V. Şervan ve Derbend tarihi(10. – 11. Yüzyıllar). Çeviren: İlhan Aslan. İstanbul: POST YAYINEVİ, 2023, 248 s.
12. Musəvi T.M. Bakı tarixinə dair orta əsr sənədləri. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1967, 149 s.
13. Piriyev V. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı: "Elm", 1978, 458 s.
14. История Дагестана. Том I. Москва, Главная редакция восточной литературы, 1967, 431 с.

15. Петрушевский И.П. Ислам в Иране в VII - XV веках (курс лекций) / Отв. ред. В.И. Беляев. Л.: Издательство Ленинградского университета, 1966, 200 с.
16. Эвлия Челеби. Книга путешествий Сейахатнаме. Вып. 3. Земли Закавказья и сопредельных областей Малой Азии и Ирана. М., Наука, 1983, 241 с.
17. Юнусов А.С. Ислам в Азербайджане. Баку: «Заман», 2004, 388 с.

ЗАХРА ИСЛАМОВА
Доктор философии по истории,
Преподаватель Бакинского государственного университета

РАСПРОСТРАНЕНИЕ СУННИТСКОГО ИСЛАМА И ФОРМИРОВАНИЕ РЕЛИГИОЗНЫХ ИНСТИТУТОВ В ЭПОХУ ШИРВАНШАХОВ

В данной статье рассматривается развитие религиозной структуры и институционализация суннитского ислама в регионе Ширван (северо-восточный Азербайджан) в период правления династии Ширваншахов (IX–XVI вв.). Основное внимание уделено тому, как суннитское вероучение, особенно ханафитская школа, стало идеологическим стержнем государства и повлияло на формирование судебных и административных структур. Опираясь на описания османского путешественника Эвлии Челеби и другие исторические источники, автор исследует религиозные учреждения, такие как мечети, медресе, текке (суфийские обители), а также учреждения, финансируемые через вакуфы. Делается вывод, что в Ширване был сформирован религиозно-административный порядок, где суннитский ислам служил не только духовным ориентиром, но и важным инструментом социальной стабильности и экономического обеспечения через систему вакуфов.

Ключевые слова: Ширваншахи, суннитская секта, ханафитская юриспруденция, религиозные учреждения, облечение, система кази, Накшбандия, Кадирия, Эвлия Чалаби, Ширванская область.

ZEHRA ISLAMOVA
PhD, Lecturer of Baku State University

THE SPREAD OF SUNNI ISLAM AND THE FORMATION OF RELIGIOUS INSTITUTIONS DURING THE SHIRVANSHAH ERA

This study investigates the religious and institutional development of Sunni Islam in the Shirvan region of northeastern Azerbaijan during the rule of the Shirvanshahs (9th–16th centuries). The research highlights how Sunni Islam, particularly the Hanafi school, became the ideological foundation of the Shirvanshah state and how this religious identity was reinforced through state policies, judicial structures, and endowment practices. Drawing on the observations of the 17th-century Ottoman traveler Evliya Çelebi and other primary historical sources, the article analyzes the emergence and operation of key religious institutions, including mosques, madrasas, Sufi lodges (tekke), and waqf-funded facilities. The study concludes that the Shirvanshah state developed a religious-administrative model in which Sunni Islam was not only a theological doctrine but also a mechanism for institutional governance and economic stability, particularly through the waqf system.

Keywords: Shirvanshahs, Sunni sect, Hanafi jurisprudence, religious institutions, endowment, qazi system, Naqshbandiyya, Qadiriyya, Evliya Chalabi, Shirvan region.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 iyul 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Bəymirzə Şabiyev, t.e.d. Qabil Əliyev.